Milli kitabşünaslıq elminin görkəmli xadimi

Ümumiyyətlə, Azərbaycan kitabının təxminən min illik inkişaf yolu haqqında yığcam məlumat vermək çətin və məsuliyyətli işdir. Lakin etiraf etmək lazımdır ki, bu problemlə ötən yüzillikdə ciddi məşğul olunmuşdur.

Azərbaycan Milli Kitabşünaslıq elminin inkişafına XX əsrin 50-60-cı illərindən başlanmışdır. Bu dövrdə Həmid Araslı, Cahangir Qəhrəmanov, Məmmədağa Sultanov, Əziz Mirəhmədov, Şamil Cəmşidov, Hacı Həsənov və b. əlyazma kitabları xəttatlıq sənəti, xəttatların fəaliyyəti, əlyazma kitabının yayılması və tərtibatı məsələləri müəyyən qədər öyrənilmiş kitab və kitabçılıq işi ilə əlaqədar bir çox maraqlı və əhəmiyyətli problemlər müəyyənləşdirilmişdir. 1970-1980-ci illərdə Kamandar Şərifli, Məmməd Adilov əlyazma abidələrinin öyrənilməsi və tədqiqinə dair bir sıra qiymətli əsərlər yazmışlar. Bu tədqiqatlar içərisində sənətşünaslıq elmlər doktoru Adil Qazıyevin elmi əsərləri xüsusi əhəmiyyət kəsb edir. O ilk dəfə Azərbaycanda xətt növləri əlyazma kitablarının hazırlanması, xəttatların fəaliyyəti, yazı materialları və s. əsaslı şəkildə öyrənmiş və çox qiymətli əsərlər yazmışdır.

Milli Azərbaycan kitabşünaslığının əsaslı şəkildə öyrənilməsi tədqiqi tarix elmləri doktoru, professor Bayram Vəli oğlu Allahverdiyevə məxsusdur. O, XI-XVIII əsrlərdə Azərbaycan əlyazma kitablarını, xəttatlıq sənətini, görkəmli xəttatların fəaliyyətlərini meydana çıxarmışdır. Alim kitabşünaslığın əsas istiqamətlərindən biri olan kitab nəşri problemlərinə aid geniş tədqiqat işi aparmış əsaslı monoqrafiya yazmış və çap etdirmişdir. Bu mənada "Ümumi kitab tarixi", "Kitabşünaslığın əsasları", "Kitabın tipologiyası" və s. xüsusi əhəmiyyətə malikdir. Alim kitab və kitabçılıq işinə, ümumiyyətlə, kitabşünaslığın kompleks məsələlərinə, mühüm aspektlərinə dair 400-dən çox elmi məqalənin və 10-a qədər adda kitab, dərslik, dərs vəsaiti və monoqrafiyanın müəllifidir.

Alimin əsərləri sübut edir ki, o, Azərbaycan milli kitabşünaslıq elminin banisidir.

Müəllif "Kitablar haqqında kitab" əsərində ayrı-ayrı kitab növlərinin, formalarının və tiplərinin bütün xüsusiyyətlərini açmaq kimi böyük bir məsələni qarşısına məqsəd qoymuşdur. Əsərin başlıca ideyası yazının və kitabın yaranması, əlyazma kitabları, onların xüsusiyyətləri, çap kitablarının tərtibatı tarixi və inkişafından bəzi maraqlı məsələləri yığcam şəkildə oxuculara çatdırmaqdan ibarətdir.

Alim tədqiqatlar nəticəsində müəyyən edir ki, XIX əsrin sonu və XX əsrin əvvəllərinə qədər Azərbaycan kitabının ən çox çap olunduğu yerlər Təbriz və Tiflis olmuşdur. Bunun ardınca da prof. B.V.Allahverdiyev XVIII əsrin axırı, XIX əsrin birinci yarısında nəşr edilən və Azərbaycan çap kitabının ilk nümunələri hesab olunan bu kitabların sayının 19 olduğunu göstərir.

Məlumdur ki, Azərbaycan elminin nəzəri baxımdan ən az inkişaf etmiş sahələrindən biri kitabşünaslıqdır. Bu sahənin Azərbaycanda ən görkəmli nümayəndəsi, professor Bayram Allahverdiyevdir. B.Allahverdiyev mükəmməl elmiliyi, analitik düşüncə tərzi, özünüifadə mədəniyyəti ilə tanınan alimlərdəndir. Keçən əsrin 60-70-ci illərindən öz elmi ilə tanınan professor Bayram Allahverdiyev çox qiymətli elmi əsərlərilə Azərbaycan və eləcə də dünya kitabşünaslığını zənginləşdirmiş və inkişaf etdirmişdir. Məlumdur ki, kitabşünaslığın məqsədi - kitabçılıq işinin inkişafını tənzim etmək, onun əsas istiqamətlərini müəyyənləşdirmək, milli və bəşəri təcrübəni ümumiləşdirmək, öyrənmək əsasında özünü təkmilləşdirmək, başqa elmlərdə: sosiologiya, psixologiya, elmşünaslıq, pedaqogikada əldə edilmiş materialları inteqrasiya etməkdən ibarətdir; hər bir tarixi mərhələdə şəraiti və vasitələri üzə çıxarmaq, kitabın ideoloji mübarizə silahı, tərbiyə, təhsil, elm, texnika, mədəni tərəqqi, xalqlar arasında ünsiyyət vasitəsi kimi ictimai funksiyalarını öyrənməkdir.

Azərbaycanda kitabın tipologiyası problemi elmi şəkildə ilk dəfə professor B.Allahverdiyevin "Kitabşünaslıq" adlı dərs vəsaitində öz əksini tapmışdır. Doğrudur, alim özünün elmi əsərlərində konkret bir sahəni təbiət elmləri və texnika sahələri üzrə kitabın tipologiyasını, onun əlamətlərini elmi şəkildə əsaslandırmışdır. O yazır: "Çap əsərlərinin təsnifləşdirilməsində nəzərə alınan əsas əlamətlərdən biri də məzmundur. Çap əsərlərinin məzmununa görə ədəbiyyat bir çox növlərə bölünür. Ədəbiyyatın təsnifləşdirilməsində nəzərə alınan ümumi əlamətlərdən biri də nəşrin formasıdır və buna görə də ədəbiyyat nəşr növlərinə bölünür. Çap əsərlərinin nəşriyyat formasından asılı olaraq, nəşrin növü, forması müəyyənləşir. Bunlar aşağıdakılardır: kitablar, kitabçalar, dövri nəşrlər (jurnallar, qəzetlər, bülletenlər), vərəqələr, plakatlar və s.".

Kitabın tipologiyasında xüsusi yer tutan nəşr tipi problemi də B.Allahverdiyevin tədqiqatlarında xüsusi yer tutur. Belə ki, məqsəd və oxucu istiqamətindən asılı olaraq, ədəbiyyatın nəşr növləri, o cümlədən elmi və texniki ədəbiyyat tiplərə bölünür. Tam əsərlər külliyyatı, əsərlər külliyyatı, seçilmiş əsərlər, ayrı-ayrı əsərlər, monoqrafiyalar və mövzu məcmuələri ədəbiyyatın nəşr tiplərini təşkil etdiyi fikrini irəli sürən Bayram Allahverdiyev bu nəşr tiplərində buraxılan ədəbiyyatın oxucu təsnifatına da öz tədqiqatlarında xüsusi diqqət yetirir. Nəşrin quruluşu haqqında qiymətli elmi fikir və mülahizələr irəli sürür.

Professor Bayram Allahverdiyevin (R.A.Məmmədzadə ilə birlikdə) "Müasir mərhələdə kitab ticarətinin təşkili" adlı monoqrafiyası da xüsusi əhəmiyyət kəsb edir. Bu dəyərli monoqrafiya kitab ticarəti təşkilatları və müəssisələrinin quruluşunu, topdan və pərakəndə kitab ticarəti təşkilinin nəzəriyyəsinin, tarixini, kitabxana kollektorunun kitab ticarətində rolu və yerini müəyyən edir. Kitabda yeri gəldikcə kitab nəşrinin kitab ticarəti təşkilindəki əhəmiyyəti və rolu göstərilmiş, inkişaf perspektivi müəyyənləşdirilmişdir.

Məlumdur ki, kitab ticarətinin təşkili - kitab ticarəti sisteminin struktur təşkilini, onun tərkib hissələrinin qarşılıqlı əlaqəsi və təsirini, əmtəə hərəkəti prosesində yarımbölmələrin funksional sistemini, texnoloji proseslərin maddi-texniki təchizatını və s. əməliyyatlar məcmusunu əhatə edilir. Bütün bunlar kitab məhsuluna əhalinin tələbatının daha tam ödənilməsi kimi başlıca vəzifənin təmin edilməsinə xidmət edir.

Ayrı-ayrı dövrlərdə, müxtəlif quruluşlarda nəşriyyat və mətbəələrin fəaliyyətləri daha çox kitabın istehsalı ilə bağlı olmuşdur. Doğrudur, quruluşun müxtəlifliyindən asılı olmayaraq, çox hallarda nəşriyyatların böyük əksəriyyəti öz istehsal etdikləri kitab məhsulunun satılmasına xüsusi maraq göstərmişlər. XIX və XX yüzilliklərdə kitabın ticarəti ilə ayrı-ayrı nəşriyyatlarla yanaşı, daha çox müxtəlif müəssisə, idarə və təşkilatlar məşğul olmağa başlamışdı".

B.Allahverdiyevin elmi kitabları içərisində "Ümumi kitab tarixi" xüsusi əhəmiyyət kəsb edir. Azərbaycan dilində ümumi kitab tarixi mövzusunda ilk dəfə nəşr olunan bu tədris-metodik vəsaitdə qədim Misir, şumer, Çin, hind, yəhudi, türk, slavyan xalqlarının ən qədim yazı tipləri, sistemləri, əlifbaları, yazı materialları, əlyazma kitabları, onların meydana gəlməsi, təşəkkülü, inkişafı, istifadəsi və yayılması problemləri şərh edilir. Aydındır ki, bir çox xalqların kitab tarixinin bütöv dövrünü çox dolğun surətdə əks etdirmək xeyli dərəcədə çətindir. Bayram müəllimin yaradıcılıq axtarışları, mövzuya yanaşması və şərh üsulu mürəkkəb, çətin problemin müvəffəqiyyətli həllinə imkan vermişdir. Uzun tarixi dövrlərlə bağlı bitkin bir elmi təsəvvür yarada bilmək bacarığı müəllifə nəsib olmuşdur. Ensiklopedik nəşrə bənzəyən "Ümumi kitab tarixi"ni kitab və kitabçılıq işi sahəsində dünya təcrübəsinin öyrənilməsi, tətbiqi baxımından mənbə hesab etmək olar.

Professor Bayram Allahverdiyevin Bakı Dövlət Universitetinin 90 illiyi münasibətilə ərsəyə gətirdiyi "Bakı Dövlət Universitetinin nəşriyyatçılıq fəaliyyəti" adlı monoqrafiyası xüsusilə diqqəti cəlb edir. Bu kitab Bakı Dövlət Universiteti nəşriyyatının yaranması, formalaşması və inkişafı məsələlərini əhatə edir.

Monoqrafiyada müstəqillik illərində "Bakı Universiteti" nəşriyyatının fəaliyyəti, maddi-texniki bazası, çap nəşrlərinin təhlili və universitet rəhbərliyinin qayğısı və nəşriyyatın inkişaf perspektivləri öz əksini tapmışdır. Müəllif ön sözdə yazır: Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin təşəbbüsü ilə ilk ali təhsil müəssisəsinin açılması xalqımızın maarif, mədəniyyət, təhsil və elm tarixi sahəsində çox böyük əlamətdar hadisə olmuşdur. Bakı Dövlət Universitetinin 90 illik fəaliyyəti nəticəsində Azərbaycan xalqının bütün fəaliyyət sahələrində, xüsusilə təhsil, elm, mədəniyyət, ədəbiyyat və incəsənətdə böyük nailiyyətlər əldə edilmişdir... Bu gün universitetin keçdiyi mürəkkəb, lakin şərəfli tarixi yol ona haqq qazandırır ki, Bakı Dövlət Universitetinin bütün çoxcəhətli fəaliyyət sahələrindən, o cümlədən nəşriyyatçılıq işindən də yazılsın".

"Kitabşünaslığın əsasları" adlı fundamental irihəcmli monoqrafiyası da alimin yaradıcılığında mühüm yer tutur. Onu da qeyd etməliyik ki, tarix elmləri doktoru, professor Bayram Allahverdiyevin bu monoqrafiyası dünyada ilk dəfə olaraq Azərbaycanda nəşr edilir və kitabşünaslığın əsasən nəzəri məsələlərini əhatə edir. "Kitabşünaslığın əsasları" monoqrafiyası səkkiz fəsildən ibarətdir. "Kitab sənəti", "Kitabşünaslıq biliklər sistemi", "Kitab və cəmiyyət", "Kitabçılıq işi sistem kimi", "Kitabın funksiyaları", "Kitabın quruluşu və onun ünsürləri", "Kitabın tipologiyası", "Kitab və oxucu" da kitab və kitabçılıq işinin mahiyyəti, məzmunu, quruluşu, tarixi, tərkib hissələri qanunauyğunluqları məntiqi şəkildə ümumiləşdirilir. Monoqrafiyada eyni zamanda, kitab və kitabçılıq işinin obyekti, predmeti, məzmunu, tərkib hissələri öz əksini tapmışdır. Müəllif ilk dəfə monoqrafiyada kitabşünaslığın nəzəri məsələlərinə dair problemlərlə yanaşı, kitabşünaslığın elmi-nəzəri səviyyəsi ilə üzvi surətdə bağlı olan təcrübi problemlərə də müəyyən qədər yer vermişdir. O, göstərir ki, kitabşünaslıq kitabın ümumi nəzəriyyəsi haqqında elmdir. Müəllif, həmçinin ilk dəfə olaraq kitaba elmi tərif verərək qeyd edir ki, kitab cəmiyyətin maddi və mənəvi həyatının məhsulu olmaqla bərabər, sosial həqiqətin obyektiv və subyektiv hadisəsidir. Professor,eyni zamanda, ilk dəfə olaraq kitab sənətinin elmi tərifini verir. O, yazır ki, "Kitab sənəti - kitabı yüksək bədii və poliqrafik formada nəşr etmək üçün əvvəlcədən düşünülmüş, hazırlanmış bədii yaradıcılıq layihəsinin həyata keçirilməsini özündə ehtiva edir". Müəllif kitab sənətinin tərifi ilə bərabər, monoqrafiyada əlyazma kitab sənəti, çap kitab sənəti, kitabın bədii tərtibatı haqqında da çox maraqlı, elmi fikir və mülahizələr söyləyir.

Alim qeyd edir ki, "kitabın çap olunmasını həyata keçirən kompleks istehsal prosesinə kitab çapı deyilir". Kitab çapının meydana gəlməsi və inkişafı haqqında müəyyən məlumat verən müəllif kitab çapının təkmilləşməsində, kitab nəşrinin inkişafında, çap texnologiyasının təkamülünün əhəmiyyətini xüsusi vurğulayır. Monoqrafiyada kitabın quruluşu, onun ünsürləri nəzəri aspektdən təhlil edilir. Bədii və texniki hissədən ibarət olan kitab tərtibatı, mövcud mətn, qrafik, material və illüstrasiyaların səhifələrdə bədii cəhətdən ahəngdar, texniki baxımdan düzgün yerləşdirilməsini özündə birləşdirir. Monoqrafiyanın ən mühüm keyfiyyətlərindən biri budur ki, burada ilk dəfə olaraq kitabın funksiyaları - bilikvermə, tərbiyə, əxlaq, maarifçilik, təhsil, mədəniyyət, elm və informasiya funksiyaları elmi əsaslarla şərh edilir.

"Kitabşünaslığın əsasları" monoqrafiyasında ilk dəfə olaraq kitabların tipləri: elmi, tədris, istehsalat-texniki, soraq-məlumat, rəsmi sənəd, elmi kütləvi və s. elmi əsaslarda şərh edilir, ölkəmizdə nəşriyyatlarımız tərəfindən çap edilən nəşrlər əsasında kitabın tiplərinin təhlili təcrübi cəhətdən əsaslandırılır. Monoqrafiyanın ən maraqlı fəsillərindən biri kitab və oxucu probleminə həsr edilmişdir. Burada Azərbaycan oxucusunun tarixi müəyyənləşdirilir, məlum olur ki, Azərbaycan kitab oxucusunun tarixi X-XI əsrlərdən başlanır. Deməli, kitabda 1000 illik Azərbaycan kitabı oxucusunun tarixi, onun inkişaf xüsusiyyətləri, müasir dövrdə kitab və oxucu münasibətləri ümumiləşdirilir. Bu monoqrafiyası ilə müəllif ölkəmizdə kitabşünaslığın inkişafında xüsusi xidmətləri olan alimlərin fəaliyyətlərinin öyrənilməsini də zəruri hesab edir. Əlbəttə, monoqrafiyanın məziyyətlərindən çox yazmaq, danışmaq olar. Belə bir ümumi, yekun fikri ifadə edə bilərik ki, professor B.V.Allahverdiyev özünün bu monoqrafiyası ilə Azərbaycan kitabşünaslığının, hətta ümumi kitabşünaslığın nəzəri sahədəki boşluğunu doldura, zənginləşdirə bilmişdir. Beləliklə, Azərbaycan kitab mədəniyyətinin, kitab haqqında elmin əsasları bu monoqrafiya vasitəsilə kitabşünaslara, kitabxanaşünaslara, biblioqraflara, nəşriyyat işçilərinə, ali məktəb tələbələrinə, ümumiyyətlə, geniş oxucu kütləsinə çatdırılır.

Kitabşünaslıq və nəşriyyat işi kafedrasının müdiri vəzifəsində çalışdığı illərdə B.Allahverdiyevin təsis etdiyi kafedranın adını daşıyan elmi-nəzəri və təcrübi jurnal 2008-ci ildən hər il 4 buraxılışı olmaqla (rübdə bir dəfə) çap olunur. Təsisçi və Baş redaktor olduğu "Kitabşünaslıq və nəşriyyat işi" adlı elmi-nəzəri və təcrübi jurnal 2009-cu ildən Ali Attestasiya Komissiyası tərəfindən qeydiyyatdadır. Jurnalın səhifələrində əlaqədar problemlər üzrə Azərbaycan, rus və ingilis dillərində materiallar dərc edilir. Bu jurnalda kitab və kitabçılıq işinin ən aktual və maraqlı məsələləri, yəni kitab nəşri, təbliği, yayılması, tərtibatı, oxucu və kitab münasibətləri və s. işıqlandırılmışdır. Nəşrin elmi redaktoru mərhum professor İsmayıl Ömər oğlu Vəliyev olmuşdur.

Bu jurnalda professor B.Allahverdiyevin özünün də həmişə aktual olan xeyli elmi-tədqiqatları ilə bağlı məqalələri çap olunmuşdur. "Kitabşünaslıq və nəşriyyat işi" elmi-nəzəri və təcrübi jurnal 2008-ci ildən uğurla çap olunaraq, elmi ictimaiyyətə təqdim olunur.

Həmçinin, prof. Bayram Allahverdiyev "Kitabxanaşünaslıq və biblioqrafiya", "Kitabxanaşünaslıq və informasiya", "Kitabşünaslıq və redaktor sənəti", "Dil və Ədəbiyyat" beynəlxalq elmi-nəzəri və praktiki jurnalın redaksiya heyətinin və "Kitabxanaçılıq və informasiya" fakültəsinin Elmi Şurasının

üzvüdür. Hesab edirik ki, Bayram Allahverdiyev BDU-nun aparıcı tərkib hissələrindən biri olan "Kitabxanaçılıq-informasiya" fakültəsinin tarixinə sütun şəxsiyyətlərdən biri kimi daxil olmuşdur.

Bu il ərzində professor B.Allahverdiyev yaradıcı imkanlarından bəhrələnərək, ümumilikdə 45 adda biblioqrafiya, metodiki göstəriş, bakalavr və magistrlər üçün proqramlar nəşr etdirmişdir.

Ümumiyyətlə, professor Bayram Allahverdiyevin yaradıcılıq tematikası çox zəngin, geniş və əhatəlidir. Bunu alimin əsərlərini nəzərdən keçirdikcə, görməmək mümkün deyil.

2017-ci ildə isə Bayram müəllimin yeni kitabı işıq üzü gördü. "Kitabın tipologiyası" adlanan bu fundamental əsər kitabşünaslıq və jurnalistika sahəsində çalışan müəllimlər, tələbələr, hətta ixtisaslı mütəxəssislərdən ötrü olduqca dəyərli bir əsərdir.

Məlum olduğu kimi, kitabın tipologiyası kitabşünaslığın ümumi nəzəriyyəsində əsas problemlərdən biridir. Kitabın tipologiyası kitabçılıq işinin bütün praktiki aspektləri ilə də əlaqədardır. Yəni, kitabın tipologiyası kitabın tiplər üzrə yaradılması, onun nəşri, təbliği və yayılmasını özündə ehtiva edir. Müasir dövrdə kitabın tipologiyası kitabşünaslıq elminin əsas bölmələrindən biridir. Vəzifəsi isə nəşrin funksional əlamətini meydana çıxarmaqdan ibarətdir. Alim qeyd edir ki, kitabın tipologiyası - onun növləri və tipləri arasındakı qarşılıqlı münasibətləri müəyyənləşdirməkdən ibarətdir. Bu əsasda kitabın tipologiyası növ və tip münasibətinin qanunauyğunluğunu şərtləndirən cəhəti, xüsusiyyəti üzə çıxarır. Bu da öz növbəsində kitaba sosial hadisə kimi baxmağı tələb edir.

Çox hallarda kitabın tipologiyasını, növünü əmələ gətirən əlamətlər kimi nəşrin forması məqsəd və oxucu təyinatı, məzmunu, yerinə yetirdiyi funksiya əsas götürülür. Məsələn, ədəbiyyatın tipologiyası - ümumiləşdirməni, müxtəlif növlü ədəbiyyatın spesifik xüsusiyyətlərini nəzərə almaqla sistemləşdirilən, onların qarşılıqlı əlaqəsini əhatə edən ümumi kitabşünaslıq problemidir. Qeyd etmək lazımdır ki, professor B.Allahverdiyevin uzun illər apardığı tədqiqatlar nəticəsində işıq üzü görən "Kitabın tipologiyası" adlı monoqrafiya qiymətli kitab incilərimizdən biridir. Həmçinin, daim istifadə və istinad ediləcək mənbə kimi də böyük elmi əhəmiyyətə malik fundamental əsərdir. Arzu edərdik ki, görkəmli kitabşünas alim, prof. B.Allahverdiyev bu istiqamətdə fəaliyyətini daha da dərinləşdirsin və genişləndirsin. Çünki o, kitabşünaslıq, kitab tarixi, nəşriyyat işi və redaktə problemləri sahəsində respublikamızda çox görkəmli mütəxəssisdir. Kitabşünaslıq üzrə ilk və yeganə elmlər doktorudur. O, nəinki dünya kitab tarixinin, o cümlədən Azərbaycan kitab tarixinin 30 ildən çox dövrdə tədqiqini həyata keçirən zəhmətkeş tədqiqatçıdır.

Fikrimizə yekun olaraq onu da deməliyik ki, şərəfli, bəhrəli bir ömür yolu keçmiş Bayram Allahverdiyev kitabşünaslıq elminin inkişafında yüksək xidmətləri olan böyük alimdir.

Onun 40 ildən çox tədqiqatçılıq fəaliyyətinin nəticəsi olaraq ortaya qoyduğu əsərlərində, kitabşünaslıq, kitab tarixi, kitabçılıq işi, nəşriyyat işi problemləri ilə yanaşı, apardığı ümumiləşdirmələrdə bibliopolistika, kitabxanaşünaslıq, biblioqrafiyaşünaslığın müxtəlif istiqamətləri ilə yanaşı, əlaqəli tədqiqatlarıdır. Bu mənada, prof. Bayram Allahverdiyev kompleks fəaliyyətə malik olan kitabşünas alim olaraq mədəniyyətin qoşa qanadı kimi kitab və mütaliə, kitabxana və s. sahələrin inkişafına obyektiv yanaşması olan bir Azərbaycan ziyalısıdır.

Bayram müəllim, sözün həqiqi mənasında, öz işini, sənətini, peşəsini sevən, yazıb-yaratmaqdan yorulmayan, yaradıcılıqdan zövq alan əsl Azərbaycan ziyalısıdır.

Professor Bayram Allahverdiyev bu gün də gənclik ehtirası ilə yazıb-yaradır.

Xəlil İSMAYILOV,
tarix elmləri doktoru, professor.
Leyla ABBASOVA,
tarix üzrə fəlsəfə doktoru.